## NİYƏ BİZ?

- Xəzər Universitetini seçməklə Siz beynəlxalq reytinq cədvəllərinə əsasən Azərbaycanın ən yaxşı ali məktəbində təhsil alacaqsınız
- Siz Xəzər Universitetində, müəllim kimi fəaliyyət göstərmək üçün lazım olan bütün bilik, bacarıq və təcrübəyə sahib olacaqsınız
- Riyaziyyat və kompyuter sahələrində əldə edəcəyiniz yüksək biliklərlə yanaşı, ingilis dilini dərindən öyrənməyiniz Sizə ölkəmizdə və xaricdə fəaliyyət göstərən ingilis dilli məktəblərdə, o cümlədən beynəlxalq statuslu İB məktəblərində işləmək imkanı verəcək
- Həyata keçirdiyimiz beynəlxalq proqramlar əsasında Siz təhsilinizin bir hissəsini Amerika və Avropanın bir sıra tanınmış universitetlərində davam etdirmək imkanına malik olacaqsınız
- Müəllim kimi fəaliyyət göstərməklə yanaşı, burada alacağınız zəngin kompyuter bilikləri sayəsində Siz həm də mühəndis-proqramçı, kompyuter sistemləri adminstratoru və informasiya texnologiyalarının digər sahələri üzrə işləmək imkanları qazanacaqsınız
- Təhsilinizi tanınmış riyaziyyatçı alimlərin rəhbərliyi altında magistraturada və dokturanturada davam etdirmək imkanı qazanacaqsınız

**AZ1096**
**Məhsəti küç. 41**
**Bakı, Azərbaycan**
**(994 12) 421 10 93 — 214 (daxili)**
**(994 12) 421 79 16 — 214 (daxili)**
**math@khazar.org**
**www.khazar.org**

XƏZƏR UNİVERSİTETİ
1991
BAKI
**KHAZAR UNIVERSITY**

**Hər gün, hər saat mükəmməlliyə doğru!**

# RİYAZİYYAT VƏ İNFORMATİKA MÜƏLLİMLİYİ



## İxtisas haqqında:

- Təhsil müddəti: 5 il
- Təhsil forması: əyani
- Tədris dili: Azərbaycan dili
- İxtisas üzrə peşə fəaliyyəti: orta ümumtəhsil məktəblərində riyaziyyat və informatika müəllimi



## HAQQIMIZDA

Xəzər Universitetində “Riyaziyyat və İnformatika müəllimliyi” ixtisası üzrə kadr hazırlığı universitetin Riyaziyyat və Kompyuter Elmləri Departamentləri tərəfindən həyata keçirilir.

Riyaziyyat və Kompyuter Elmləri Departamentləri nüfuzlu riyaziyyatçı alim və təcrübəli təhsil işçilərindən, kompyuter mütəxəssislərindən, həmçinin dünyanın aparıcı universitetlərində təhsil almış gənc mütəxəssislərdən formalaşmışdır.







## MƏQSƏDİMİZ

Məqsədimiz tələbələrimizi mükəmməl riyazi savada malik, müasir proqramlaşdırma dillərində sərbəst işləyə bilən, biri ingilis dili olmaqla, iki avropa dilində sərbəst danışa bilən, intellektual və mədəni səviyyəsi yüksək olan, ölkəmizin ictimai həyatında fəal vətəndaşlıq mövqeyi ilə seçilən müəllim və mütəxəssis yetişdirməkdir.





## KADR HAZIRLIĞI

Təhsilin birinci iki ili ərzində, ixtisas fənlərinin yüksək səviyyədə tədrisi ilə yanaşı, tələbələrə intensiv olaraq İngilis dili tədris olunur. İkinci ilin sonunda tələbələrimizin, demək olar ki, hamısı ingilis dilinə IELTS və TOEFL kimi beynəlxalq sertifikatların tələblərinin yüksək səviyyəsinə uyğun yiyələnmiş olurlar

Eyni zamanda, tələbənin seçiminə uyğun olaraq, orta danışıq səviyyəsinə imkan yaradan əlavə bir avropa dilinin (alman, fransız, italian, ispan) tədrisi də həyata keçirilir

Xaricdə təhsil almış yüksək ixtisaslı mütəxəssislərimiz tərəfindən tələbələrimizə bir neçə müasir proqramlaşdırma dilləri öyrədilir

Tələbələr təhsillərinin sonuncu ilində Azərbaycanın nüfuzlu, müasir tipli özəl orta ümumtəhsil məktəbi olan “Dünya” məktəbində və digər orta məktəblərdə pedoqoji təcrübə keçirlər